Gündəlik ictimai-siyasi qəzet

# Xalq qəzeti

№ 262 (30090) 1 dekabr 2022-ci il, cümə axşamı

1919-cu ildən nəşr edilir

Veb-sayt: www.xalqqazeti.com

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan Orta Dəhliz layihəsində söz sahibidir

**Beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər, münasibətlərdəki qabarma-çəkilmələr və bir çox problemlərin hərbi yolla həll edilməsi tendensiyası sırf iqtisadi məzmunlu layihələrin əhəmiyyətini gündən-günə artırır. Biz xoşbəxtik ki, Azərbaycan həmin layihələrin bir çoxunun məhz "episentrindədir". Bunu həm ölkəmizin yerləşdiyi coğrafi məkanın hamı üçün böyük əhəmiyyət daşıması təmin edir, həm də dövlətimizin yeritdiyi xarici siyasətin çoxistiqamətliliyi. Bunu bəzən çoxvektorluluq da adlandırırlar.**

Son zamanlar həmin qlobal iqtisadi layihələrin siyahısında Orta Dəhliz ifadəsinə daha çox rast gəlirik. Onu da yada salaq ki, Orta Dəhliz ifadəsi bizə çoxdan məlum olan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun müasir adıdır. Daha doğrusu, həmin adı bizim İkinci Qarabağ müharibəsindəki qələbəmiz dəyişdirib. Bu layihə ilə bağlı ən kiçik detallar belə Azərbaycanın iştirakı ilə müzakirə edilir. Arqumentimizi noyabrın 25-də paralel olaraq Bakıda və Aktauda Orta Dəhliz mövzulu iki tədbirin keçirilməsi də təsdiqləyir.



***Fikrimcə, Orta Dəhliz çox böyük perspektivə malikdir və əlbəttə, bu layihənin həyata keçirilməsində Qazaxıstanın və Azərbaycanın çox mühüm rolu var.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 24 avqust 2022-ci il**

Xatırladaq ki, həmin gün Bakıda – ADA Universitetində "Orta Dəhliz boyunca: geosiyasət, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfrans keçirilirdı. Tədbirin açılışında çıxış edən dövlət başçımız xüsusi olaraq vurğulamışdı ki, Orta Dəhliz kimi irimiqyaslı layihəni icra etmək üçün təhlükəsizlik və iqtisadi bacarıq məsələləri mütləq müzakirə olunmalıdır. Azərbaycan Prezidentinin fikrincə, təhlükəsizlik və iqtisadi potensial olmadan bütün region ölkələrinə fayda verəcək Orta Dəhlizin tam istismara verilməsi məqsədinə nail olmaq mümkün olmayacaq.

(ardı 3-cü səhifədə)

# Azərbaycan Orta Dəhliz layihəsində söz sahibidir




**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev dünyanın müxtəlif ölkələrindən gəlmiş beyin mərkəzi təmsilçilərinin nəzərinə çatdırmışdı ki, istənilən genişmiqyaslı layihənin icrası üçün önəmli elementlərdən biri sabitlikdir. Azərbaycanda uzun illərdir ki, sabitlik var və bu, bizim iqtisadi inkişafımızın əsas amillərindən biridir. İndi Azərbaycanın beynəlxalq arenada oynadığı rol da elə bizim daxili siyasətimiz sayəsində əmələ gəlmişdir.

Həmin gün Orta Dəhliz məsələsi Xəzərin gündoğan sahilində də müzakirə olunurdu. Belə ki, noyabrın 25-də Aktauda Azərbaycan, Qazaxıstan və Türkiyənin həm xarici işlər, həm də nəqliyyat sahələri üzrə məsul nazirlərinin görüşü keçirilirdi. O tədbir haqqında söz açarkən xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, görüşə Gürcüstanın nümayəndə heyəti də qatılmışdı. Bu isə Azərbaycanın maraqlarını təmin etmək üçün atılan uğurlu addımlardan biri idi.

Bu arqumentimizi əsaslandırmaq üçün də dövlət başçımızın ADA Universitetində dilə gətirdiyi fikirlərə istinad etmək istərdik. Prezident həmin konfransda dedi ki, Azərbaycanın coğrafiyası yaxşı məlumdur. Bizim açıq dənizə, okeanlara çıxışımız yoxdur. Buna görə istər enerji layihələrimiz, istərsə də nəqliyyat layihələrimiz olsun, hədəfimizə çatmaq üçün biz çox gərgin işləməli idik.

Bəli, çox işlədik və beynəlxalq dənizlərə çıxışı olan Gürcüstanın Orta Dəhlizə qatılmasını təmin etdik.

Xatırladaq ki, Aktauda keçirilən tədbir bu il iyunun 27-də Azərbaycan, Qazaxıstan və Türkiyənin xarici işlər və nəqliyyat sahələri üzrə məsul nazirlərinin Bakıda keçirilmiş birinci üçtərəfli görüşünün davamı kimi təşkil edilmişdi. Aktau müzakirələrinin gündəliyində duran əsas məsələ bölgənin nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlərin müzakirəsi və tərəfdaşlığın daha da genişləndirilməsi idi. Aktauda bu marşrutun inkişaf etdirilməsinə, mövcud olan yük daşımalarına diqqət yetirilirdi.

Azərbaycan tərəfi bu marşrutun region ölkələri üçün daha səmərəli olmasına özünəməxsus töhfələr vermişdir. Belə ki, 44 günlük müharibədən sonra Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının imzaladıqları üçtərəfli Bəyanata əsasən, açılması gözlənilən Zəngəzur dəhlizi Orta Dəhlizin səmərəsini qat-qat artıracaqdır.

Ekspertlərin fikrincə, Orta Dəhlizin tərkib hissəsi olan Zəngəzur dəhlizinin əhəmiyyəti böyük, perspektivləri isə hamı üçün səmərəlidir. Aktauda vurğulanıb ki, bu dəhliz Transxəzər Beynəlxalq Şərq-Qərb layihəsi (Orta Dəhliz) çərçivəsində nəqliyyat imkanlarını daha da artırmaq potensialına malikdir. Zəngəzur dəhlizinin Orta Dəhlizlə birləşdirilməsi regionda bütün kommunikasiyaların, eləcə də, beynəlxalq nəqliyyat əlaqələrinin genişlənməsinə xidmət edəcək.

Aktau müzakirələrinin başqa bir əhəmiyyəti isə ondan ibarətdir ki, həmin müzakirələrin sonunda Bakı Bəyannaməsinə uyğun olaraq, Türkiyə, Azərbaycan və Qazaxıstan ərazisindən keçən Orta Dəhliz marşrutunun inkişafı və istismarına dair "2022–2027-ci illərin yol xəritəsi" imzalanıb.

Sonda bir daha xatırladaq ki, regionda heç bir layihə Azərbaycanın iştirakı olmadan həyata vəsiqə ala bilmir. Üstəlik, bizim bütün təşəbbüslərimiz, Ermənistan istisna olmaqla, hamı tərəfindən dəstəklənir. Ermənistanın isə "daşı ətəyindən tökəcəyi" günə az qalıb. Onlar son zamanlar iqtisadi tərəqqiyə, firavan həyata daha çox möhtacdırlar və artıq anlamalıdırlar ki, tərəqqi də, firavanlıq da, sülh və əmin-amanlıq da qonşularla normal münasibətlərin qurulmasından keçir.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**